# TAKSİ XİDMƏTİ

## KİÇİK SAHİBKARLAR ÜÇÜN BƏLƏDÇİ

Bakı - 2016

**Taksi xidməti: kiçik sahibkarlar üçün bələdçi.**
Bakı 2016, 48 səh

**Müəlliflər:**
**Rövşən AĞAYEV**
**Samir ƏLİYEV**

*Bu nəşr Amerika xalqının USAİD vasitəsilə göstərdiyi səxavətli dəstəyi nəticəsində ərsəyə gəlmişdir. Bu nəşrin məzmununa görə İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi məsuliyyət daşıyır. Burada ifadə olunan fikirlər USAİD-in və ya Amerika Birləşmiş Ştatları Hökumətinin mövqeyini əks etdirməyə bilər*

**ISBN 978-995281-322-7**

**© İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi**

**Mündəricat**

Ön söz ....................................................................................................4

Giriş ........................................................................................................5

Taksi xidməti göstərənlərin vergi öhdəlikləri ....................................7

Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması
qaydalarının pozulmasına görə məsuliyyət .......................................17

Taksi xidməti göstərmək üçün əsas tələblər .....................................19

*Sürücüyə qarşı tibbi tələblər* ..............................................................19

*Sürücüyə qarşı peşəkar tələblər*..........................................................19

*Taksi kimi isitifadə edilən avtomobilə qarşı tələblər* .................21

*Taksi vasitəsilə sərnişin daşınması ilə bağlı ümumi tələblər* ......22

*Taksi xidməti göstərən sürücülərin vəzifələri* ...............................24

*Taksi xidməti göstərən sürücülərin hüquqları* ..............................25

*Taksi minik avtomobillərinin sürücülərinin etik davranışı
ilə bağlı xüsusi hazırlığın təşkili* .........................................................26

*Taksi xidməti göstərən sürücülər üçün qadağalar* ........................27

*Taksi minik avtomobili sərnişininin vəzifələri* ..............................28

Taksi xidməti göstərmək üçün dövlət standartları .........................30

*Taksi maşınlarının xarici tərtibatı*...................................................30

*Taksi maşınlarının daxili tərtibatı* ..................................................34

Taksilərin reysqabağı yoxlanılması ..................................................37

*Texniki vəziyyətinin reysqabağı yoxlanılması* ..............................37

*Reysqabağı tibbi müayinə* ..................................................................39

Taksi xidməti sahəsində dövlət tənzilənməsi ..................................41

Əsas hüquqi aktlar ...............................................................................43

Terminlərin izahı ..................................................................................45

# Ön söz

Bu bələdçi Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyələşdirdiyi "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində hazırlanıb.

Layihənin məqsədi Azərbaycanda kiçik sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu məqsədlə layihə çərçivəsində kiçik sahibkarlığın vəziyyəti və problemləri araşdırılır, qanunvericiliyin təkmilləşdirilməsinə, dövlət idarəetmə institutlarının gücləndirilməsinə dair təkliflər hazırlanır, konkret kiçik sahibkarlıq sahələrindəki maneə və çətinliklər təhlil edilir, qadın-ailə biznesinin inkişafına dair tədqiqatlar aparılır və tövsiyələr hazırlanır və bir sıra digər vacib istiqamətlərdə işlər görülür.

Layihənin icraçıları bunlardır: Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (aparıcı təşkilat), İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi, İqtisadi Tədqiqatlar Mərkəzi, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi, Gələcəyə Körpü Gəncə gənclər ictimai birliyi və Quba Xalça Dünyası Assosiasiyası.

Bu kitabça taksi xidməti göstərmək istəyən fiziki və hüquqi şəxslərin hansı prosedurları keçməli olduğu göstərir.

Kitabçada sərnişin daşımaları sahəsində nəqliyyat xidməti göstərmək istəyən kiçik və orta sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı, vergi rejimi, taksi xidməti göstərən avtomobillər və sürücülər üçün vacib olan dövlət standartları, onların alınması formaları və s. əks olunub.

Bələdçi kiçik sahibkarlıqla məşğul olan subyektlər üçün nəzərdə tutulub.

## Giriş

Müasir həyatı taksisiz təsəvvür etmək mümkün deyil. Xüsusən də görüşə gecikəndə təyinat məntəqəsinə vaxtında çatmaq üçün taksi xidmətindən istifadə etməli oluruq. Tıxac halları istisna olmaqla bir qayda olaraq taksi vaxtında istəyimiz məkana müştərini çatdırır.

Azərbaycanda taksi xidməti avtomobil, avtobus və metrodan sonra ən çox tələb olunan nəqliyyat növüdür. Sürətli sərnişindaşıma növlərindən olan taksilər müştəri tələbatına görə hava və dəniz nəqliyyatını geridə qoyur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2014-cü ildə ölkə üzrə 60 milyondan çox vətəndaş taksi xidmətindən istifadə edib. Deməli, gündəlik orta hesabla 165 min sərnişin mənzilbaşına çatmaq üçün taksiyə minməli olur. 2010-2014-cü illərdə taksi müştərilərinin sayı 50% artıb.

Ölkəmizdə taksi xidməti əsasən fərdi sahibkarlıq subyektləri üzərində qurulub. Şəxsi avtomobili olan vətəndaşlar zəruri icazə almaqla taksi xidməti göstərir. Azərbaycanda hüquqi şəxs olaraq taksi xidmət göstərilməsi təcrübəsi geniş yayılmayıb. Belə şirkətlər ən yaxşı halda paytaxtda fəaliyyət göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, taksi xidməti göstərən şirkətlərdə 435 nəfər muzdlu çalışır və onların orta aylıq əmək haqları təxminən 606 manat civarındadır. Son illər taksi şirkətlərinin artması tendensiya zəif də olsa müşahidə edilir.

Uzun müddət taksi xidməti lisenziya tələb olunan sahibkarlıq fəaliyyəti hesab olunub və həmin lisenziyalar Nəqliyyat Nazirliyi tərəfindən 5 il müddətinə verilirdi. Bu xidməti göstərmək istəyən fiziki və hüquqi şəxs 150 manat ödəməli olurdu. Ancaq prezidentin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli, 713 saylı Fərmanı ilə taksi xidməti lisenziya tələb olunan fəaliyyət sırasından çıxarılıb. Bu o deməkdir ki, müəyyən tələblərə cavab verən istənilən fiziki və hüquqi şəxs "Fərqlənmə nişanı" almaqla taksi xidməti göstərə bilər.

Hazırda nəqliyyat sektorunda əsas problemlərdən biri taksi xidməti göstərən maşınların dövlətin qəbul etdiyi standartlara uyğun

gəlməməsi, pərakəndəliyin olmaması, sürücülərin peşəkarlığının lazımi səviyyədə olmamasıdır, vergiyə cəlb etmək imkanlarının çətinliyidir. Taksi xidməti göstərən fiziki və hüquqi şəxslərə, o cümlədən nəqliyyat vasitəsinə və onu idarə edən sürücüyə dair normativlər və standartlar mövcuddur. Məsələn, qanunvericiliyə görə, taksi fəaliyyəti göstərən işçilər icbari tibbi müayinələrin keçirilməlidir. Nazirlər Kabinetinin qərarına əsasən, **t**aksi minik avtomobilləri ilə sərnişin daşımalarına "B" və ya "BE" kateqoriyaları üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 19-dan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi bir ildən az olmayan sürücülər buraxılır. Taksi taksi minik avtomobili xüsusi tanınma nişanları və taksometrlə təchiz olunmalıdır.

Bələdçinin də məqsədi qüvvədə olan və taksi xidməti göstərən fiziki və hüquqi şəxslərin yerinə yetirməsi məcburi olan normaları və qaydaları kiçik sahibkarların diqqətinə çatdırmaqdır. Ümidvarıq ki, bu kitabça taksi xidməti göstərmək istəyən fiziki və hüquqi şəxslər üçün bələdçi rolunu oynayacaq.

## Taksi xidməti göstərənlərin vergi öhdəlikləri

Vergi qanunvericiliyinə görə, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyekti hesab olunur.

Vergi Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən, oturacaq sayı 6-dan az olan avtomobillərlə taksi xidməti göstərən subyektlərdən öz fəaliyyətlərində nəzarət-kassa aparatları tətbiq etmək tələb olunmur. Belə taksi maşınlarda taksometr quraşdırılması nəzərdə tutulur.

Vergi Məcəlləsinin 218.4.1-ci maddəsinə görə, ölkə daxilində sərnişin daşımaları ilə məşğul olan bütün subyektlər, o cümlədən taksi xidməti göstərənlər sadələşdirilmiş verginin ödəyəciləridir. Bu müddəa həm xidməti bilavasitə özü göstərənlərə, həm də həmin



xidməti müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslərə şamil edilir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən olunur:

**Cədvəl. 1**

| **Daşınma növü** | **Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi** | **Sadələşdirilmiş verginin aylıq məbləği (manatla)** |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə: | 1 oturacaq yeri üçün | 1,8 |
| **Taksi ilə sərnişin daşınması** | **1 ədəd nəqliyyat vasitəsi üçün** | **9,0** |
| Yük daşınması | yükgötürmə qabiliyyəti üçün (hər tona) | 1,0 |

Vergi Məcəlləsinin 220.5-ci maddəsi taksi ilə sərnişin daşıması üçün sadələşdirilmiş verginin həcmini müəyyən edir. Verginin məbləği xidməti həyata keçirən sahibkarlıq subyektinin sərəncamında olan hər avtomobil üçün aylıq 9 manat nəzərdə tutulur. Lakin Məcəllənin 220.6-cı maddəsinə əsasən, ölkənin müxtəlif əraziləri üzrə baza məbləğinə (9 manat) əmsallar tətbiq edilir. Belə ki, Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0 əmsalı tətbiq edilir və sadələşdirilmiş verginin məbləği bir avtomobil üçün 18 manat təşkil edir. Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında xidmət

göstərən taksilər üçün 1,5 əmsalı tətbiq edilir və sadələşdirilmiş verginin məbləği bir avtomobil üçün 13.5 manat təşkil edir. Nəhayət, yuxarıda sadalanan ərazilər istisna olmaqla ölkənin digər şəhərlərində (həmçinin rayonlarında), həmçinin bu ərazilərlə digər yaşayış məntəqələri arasında fəaliyyət göstərən taksilər üçün 1.0 əmsalı tətbiq edilir və sadələşdirilmiş verginin məbləği bir avtomobil üçün 9 manat təşkil edir.

Avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün **Cədvəl. 1-də** göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanılır və dövlət büdcəsinə ödənilir.

***Məsələn:*** *Taksi xidməti göstərən A şirkəti və ya fiziki şəxs Bakı şəhərində sərnişin daşınmasını həyata keçirir. Bu zaman həmin şirkətin və ya fiziki şəxsin ödəyəcəyi verginin aylıq məbləği aşağıdakı kimi hesablanacaq:*

*1 ədəd taksi nəqliyyat vasitəsi üçün sadələşdirilmiş verginin aylıq məbləği 1 x 9,0 = 9,0 manat olacaq. Həmin vergi ödəyicisi Bakı şəhərində fəaliyyət göstərərsə, onun ödəyəcəyi sadələşdirilmiş verginin aylıq məbləği 9,0 x 2 = 18,0 manat olacaqdır.*

Sadələşdirilmiş verginin ödənilməsinə avtonəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsi vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi əsasında istifadə edildikdə isə vəkalətnamə (etibarnamə) və ya icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyır. Hüquqi şəxs özünə məxsus avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirdikdə sadələşdirilmiş vergi onun tərəfindən ödənilməlidir.

Vergi Məcəlləsinin 221.4.7-ci maddəsinə əsasən, taksi xidməti göstərən subtektlər xidmət göstərən nəqliyyat vasitəsi üçün öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi

hesabat blankı olan "Fərqlənmə nişanı" almalıdırlar. "Fərqlənmə nişanı" vergi ödəyicisinin nəqliyyat siyasətini həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş formada ərizəsinə əsasən **iki iş günündən** gec olmayaraq verilir.

Ölkə prezidentinin "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" 31 avqust 2015-ci il tarixli Fərmanına əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə "Fərqlənmə nişanı"nın verilməsi səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə - **ASAN Xidmətə** həvalə edilib.

"Fərqlənmə nişanı" almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində



avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Taksi xidməti göstərən istər hüquqi şəxslər, istərsə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara “Fərqlənmə nişanı” almaq hüququ qazanırlar.

***DİQQƏT!*** *“Fərqlənmə nişanı” alındığı aylar üzrə hansısa səbəbdən fəaliyyət göstərmək mümkün olmazsa, taksi xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların fəaliyyətin olub-olmamasından asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.*

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən “Fərqlənmə nişanı”nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

**"Fərqlənmə nişanı"ndakı məlumatlar**

- *vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı;*
- *vergi ödəyicisinin VÖEN-i;*
- *nişanın qüvvədə olma müddəti;*
- *avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı;*
- *avtomobil nəqliyyatı vasitələrində oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti;*
- *daşımanın həyata keçirildiyi ərazi;*
- *ödənilmiş verginin məbləği*

**Vergi Məcəlləsi**
**Maddə 221.4.8**

Avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirən vergi ödəyiciləri bu fəaliyyətdən başqa digər fəaliyyətlə məşğul olurlarsa əldə olunan gəlir və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır və bu fəaliyyət növü üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir.

**Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən, "Fərqlənmə nişanı" olmadan taksi xidməti göstərən subyektlərə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.**

Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli, 219 saylı qərarına əsasən, hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələrində POS-terminallar quraşdırılmalıdır.

Vergilər Nazirliyi taksi xidməti göstərən şirkətə məxsus bütün təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması üçün bildiriş göndərir (**ƏLAVƏ 1**). Şirkət bildirişi aldıqdan sonra 10 iş günü müddətində POS-terminalın quraşdırılması üçün bank ekvayerə (POS-terminalın quraşdırılmasını və POS-terminal vasitəsilə aparılan əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsini təmin edən bank) müraciət etməlidir.

Şirkət POS-terminalın quraşdırılması üçün ərizə ilə birlikdə aşağıdakı sənədləri bank ekvayerə təqdim etməlidir:

- vergi ödəyicisinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- şirkətin vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;
- şirkətin vergi uçotunu təsdiq edən sənədin surəti.

Bank ekvayer sifarişçinin müraciətinə 3 iş günü müddətində baxır. Müraciət müsbət olduqda tərəflər arasında müqavilə bağlanılır və 20 iş günü müddətində sifarişçinin müqavilədə nəzərdə tutulmuş təsərrüfat subyektlərində POS-terminal quraşdırılır.

Bank ekvayer POS-terminal quraşdırıldıqdan sonrakı ilk iş günü bu barədə elektron və ya kağız daşıyıcısında POS-terminalın qeydiyyatı üçün Vergilər Nazirliyinə müraciət göndərir.

**ƏLAVƏ 1**

**B İ L D İ R İ Ş _____**

Sifarişçinin adı ___________________________

Sifarişçinin VÖEN-i _______________________

Azərbaycan Respublikasının Vergilər Nazirliyi bildirir ki, 20__-c_ ilin ___-c_ rübü üzrə orta aylıq dövriyyəniz ___ manat təşkil etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin _______ tarixli ____ nömrəli qərarına əsasən tərəfinizdən bildiriş alındıqdan sonra 10 (on) iş günü müddətində ___________ kodlu obyekt(lər)də POS-teminal(lar)ın quraşdırılması üçün müvafiq bank ekvayerə müraciət edilməlidir.

POS-terminalın quraşdırılması üçün bank ekvayerə ərizə ilə birlikdə fərdi sahibkarın və ya hüquqi şəxsin qanuni təmsilçisinin şəxsiyyətini təsdiq edən sənədin, sifarişçinin vergi uçotuna alınması haqqında şəhadətnamənin və təsərrüfat subyektinin vergi uçotunu təsdiq edən sənədin surətləri təqdim edilir.

Vergi orqanının səlahiyyətli nümayəndəsi ________

(imza)

_______________

(soyadı, adı)

Tarix _____________

M.Y.

Bank ekvayerlə sifarişçi arasında bağlanmış müqavilədə aşağıdakılar əks olunmalıdır:

- *tərəflərin kartların qəbulu və xidmət olunması üzrə hüquq və vəzifələri;*
- *bank ekvayerlə sifarişçi arasında hesablaşmaların aparılması qaydası və müddəti;*

- *kart vasitəsilə mal, iş və xidmətlərin dəyərinin ödənilməsi zamanı sifarişçinin əlavə haqq təyin etməmək öhdəliyi;*
- *sifarişçi tərəfindən bank ekvayerə ödəniləcək xidmət haqqı və onun ödənilməsi qaydası;*
- *təsərrüfat subyekti tərəfindən kartların ödənişə qəbulu zamanı zəruri olan təhlükəsizlik tədbirləri;*
- *sifarişçi tərəfindən kartların ödənişə qəbul edilməsindən mümkün imtina halları;*
- *nəzərdə tutulmuş təhlükəsizlik tədbirlərinin və digər şərtlərin pozulması halında tərəflərin məsuliyyəti;*
- *kart vasitəsilə aparılmış əməliyyata görə ödənişin geri qaytarılması zamanı müştəri ilə müvafiq hesablaşmanın aparılması qaydası və müddəti;*
- *POS-terminal sıradan çıxdıqda, onun təmiri və ya əvəzedilməsi müddəti, həmçinin nasazlıqların aradan qaldırılması üzrə tərəflərin öhdəlikləri;*



Vergilər Nazirliyi 2 (iki) iş günü müddətində bank ekvayerin təqdim etdiyi məlumatlar əsasında POS-terminala qeydiyyat nömrəsi verir və müvafiq məlumatları elektron və ya kağız daşıyıcısında bank ekvayerə göndərir.

Bank ekvayer Vergilər Nazirliyindən aldığı məlumatlar əsasında tərtib etdiyi POS-terminalın qeydiyyat nömrəsi haqqında məlumatı 2 iş günü müddətində sifarişçiyə göndərir. **(ƏLAVƏ 2)** Bank ekvayer 2 iş günü müddətində POS-terminalın qoşulması və xidmət göstərməsi üçün xidmət mərkəzinə müvafiq qaydada sifariş göndərir. Xidmət mərkəzi 2 iş günü müddətində POS-terminalın qoşulmasını təmin edir.

POS-terminal xidmət mərkəzinə qoşulduqdan dərhal sonra sifarişçi POS-terminal vasitəsilə ödənişlərin qəbul edilməsini təmin edir. POS-terminalla aparılan əməliyyatlar üzrə hesablaşmalar sifarişçinin bank ekvayerdəki hesabı vasitəsilə həyata keçirilir.



**ƏLAVƏ 2**

**POS-terminalın qeydiyyatı haqqında məlumat**

Bank ekvayerin adı ______________________________

Vergi ödəyicisinin adı ___________________________

Vergi ödəyicisinin VÖEN-i ________________________

| Təsərrüfat subyektinin kodu | Təsərrüfat subyektinin adı | Ünvan | POS-terminalın seriya nömrəsi | POS-terminalın qeydiyyat nömrəsi | POS -terminalın qeydiyyata alınma tarixi |
|---|---|---|---|---|---|
| | | | | | |

Bank ekvayerin səlahiyyətli nümayəndəsi _______________

(imza)

_______________

(soyadı, adı)

Tarix ______________________

M.Y.

# Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına görə məsuliyyət

İnzibati Xətalar Məcəlləsinin 150.2-ci maddəsinə əsasən, taksi xidmətində sərnişin və baqaj daşınması qaydalarının pozulmasına görə aşağıdakı cərimələr nəzərdə tutulub:

- “Taksi” tanınma nişanları, taksometr və ya sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən edilmiş digər məlumat göstəriciləri olmadan taksi minik avtomobili ilə sərnişin daşımalarının həyata keçirilməsinə;
- müəyyən edilmiş tarifdən daha yüksək gediş haqqının tətbiq edilməsinə;



- taksi minik avtomobilində sərnişinlərin, baqaj yerlərinin sayına və baqajın kütləsinə dair müəyyən olunmuş tələblərə riayət olunmamasına görə - **qırx manatdan əlli manatadək** miqdarda cərimə edilir.






# Taksi xidməti göstərmək üçün əsas tələblər

## Sürücüyə qarşı tibbi tələblər

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 13 dekabr 2012-ci il tarixli 46 saylı “İcbari tibbi müayinələrin təkmilləşdirilməsi barədə” Qərarına əsasən, taksi fəaliyyəti işçilərin icbari tibbi müayinələrin keçirilməsi tələb olunan işlərin siyahısına daxildir. Həmin Qərara əsasən, taksi sürücülərinin görmə itiliyi korreksiya ilə bir gözdə 0,8, o biri gözdə 0,4, öz növbəsində yaxındangörmə və uzaqdangörmə korreksiyası 8,0 D, təmas linzaları, astiqmatizm 3,0 D (sfera və silindrik 8,0 D çox olmamalı), nəhayət iki göz arasında linzaların qüvvə fərqi 3,0 D-dən çox olmamalıdır.




## Sürücüyə qarşı peşəkar tələblər

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın 3-cü bölməsinin tələbinə əsasən, **t**aksi minik avtomobilləri ilə sərnişin daşımalarına “B” və ya

“BE” kateqoriyaları üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 19-dan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi bir ildən az olmayan sürücülər buraxılır. Sərnişin daşımalarını yerinə yetirən sürücüdə aşağıda göstərilən şəxsi sənədlər və nəqliyyat vasitəsinin sənədləri olmalıdır:

- *nəqliyyat vasitəsini idarə etmək hüququnu təsdiqləyən sürücülük vəsiqəsi;*
- *avtonəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;*
- *nəqliyyat vasitəsinin qanunla müəyyən edilmiş hallarda dövlət texniki baxışından keçməsi haqda sənəd;*
- *nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası müqaviləsinin “İcbari sığortalar haqqında” Qanuna uyğun bağlanmasını təsdiqləyən icbari sığorta şəhadətnaməsi;*
- *müəyyən edilmiş formada yol vərəqəsi;*
- *avtonəqliyyat vasitəsi üçün verilən lisenziya kartı;*
- *icarə müqaviləsi, etibarnamə (daşıyıcı avtonəqliyyat vasitəsinin sahibi olmadıqda).*






**<u>Taksi kimi isitifadə edilən avtomobilə qarşı tələblər</u>**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"na əsasən, **taksi minik avtomobili xüsusi tanınma nişanları və taksometrlə təchiz olunmuş, sürücünün oturacaq yeri daxil olmaqla, oturacaq yerlərinin sayı doqquzdan çox olmayan avtonəqliyyat vasitəsidir**.

***Taksometr taksi minik avtomobili üçün nəzərdə tutulmuş onun işinin maliyyə və daşınma göstəriciləri uçotunun aparılmasını, gediş haqqının müəyyən edilməsini və gediş haqqının məbləği haqqında sərnişinin məlumatlandırılmasını təmin edən xüsusi ölçü cihazıdır.***




Bu Qaydanın 2-ci bölməsinin tələbinə əsasın, taksi minik avtomobili "Taksi" tanınma nişanları ilə avtomobilin damında müvafiq fənərlə, sağ və sol qapılarda şahmat qaydasında yerləşdirilmiş damalarla təchiz olunmalı, onun salonunda taksometr, habelə sürücünün soyadı, adı, fotoşəkli və daşıyıcının (fiziki və ya hüquqi şəxsin) adı, ünvanı, telefon nömrəsi göstərilən məlumat lövhəsi olmalıdır. Öz növbəsində, iki qapılı, fərdi konstruksiya əsasında hazırlanan, əlillər üçün xüsusi avadanlıqlar quraşdırılmış, habelə əllə idarə olunan əlil avtonəqliyyat vasitələrinin taksi minik avtomobilləri kimi istismarına yol verilmir.

## Taksi vasitəsilə sərnişin daşınması ilə bağlı ümumi tələblər

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 9-cü bölməsinin tələbinə əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşınması ilə bağlı aşağıdakı ümumi tələblərə əməl etməlidir:

- *Taksi minik avtomobilləri ilə sərnişinlərin daşıma haqqının dəyəri, avtomobilin verilməsinə, minməyə, bir kilometr ödənişli gedişə və bir saat ödənişli boşdayanmaya görə elan edilmiş tariflərdən asılı olaraq taksometrin göstəricisinə əsasən müəyyən edilir;*
- *Sifariş gözləyərkən daşıyıcı taksi minik avtomobilləri üçün nəzərdə tutulmuş "Taksilərin dayanacaq yeri" yol nişanı ilə işarələnmiş dayanacaqlardan istifadə edə bilər.*
- *Taksi minik avtomobilinin bir neçə sərnişin tərəfindən dayanacaqda kirayənlənməsinə yalnız növbədə birinci olan sərnişinin razılığı ilə yol verilir.*
- *Taksi minik avtomobilini kirayələmiş sərnişinin razılığı ilə daşıyıcı digər sərnişinlərin avtomobilə yolüstü mindirilməsini həyata keçirə bilər. Bu hallarda gediş haqqının ümumi məbləği*



*sərnişinlər arasında onların hər birinin getdiyi məsafəyə uyğun olaraq bölüşdürülür.*

- *Bir taksi minik avtomobili eyni istiqamətdə gedən bir neçə sərnişin tərəfindən kirayələndikdə və həmin sərnişinlərin getdikləri məsafə təxminən bərabər olduqda, gediş haqqının ümumi məbləği sərnişinlər arasında bərabər bölüşdürülür.*
- *Taksi minik avtomobili kirayələnmədikdə, onun damındakı "Taksi" tanınma nişanı fənəri sürücü tərəfindən yandırılmalı, taksi minik avtomobili sərnişin tərəfindən kirayələndikdə isə həmin fənər söndürülməlidir.*
- *Taksi minik avtomobilinin salonunda siqaret çəkməyə və pəncərələrin açılmasına yalnız sərnişinin və sürücünün qarşılıqlı razılığı ilə yol verilir.*

*Taksi minik avtomobillərində oddan təhlükəli, tezalışan, partlayıcı, zəhərli maddələr və materialların, kəsici, çirkləndirici və ya avtomobilin salonunun üzlüyünü korlaya bilən baqajın, üzlüksüz və ya qablaşdırılmamış odlu silahın, heyvan və quşların (pişiklərin, ağızlığı taxılmış və qısa xalta qayışı olan itlərin altına salınan xüsusi döşənəklərin olduğu halda, səbətdə, zənbildə, çantada xırda heyvanlar, dibi bağlı və açıq olmayan qəfəsdə quşlar istisna olmaqla) daşınmasına yol verilmir.*



**Taksi xidməti göstərən sürücülərin vəzifələri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 9-cü bölməsində taksi minik avtomobili sürücüsü üçün aşağıdakı vəzifələr müəyyənləşdirilb:

- *müvafiq qaydada gündəlik reysqabağı tibbi müayinədən keçmək;*
- *istifadəsində olan avtonəqliyyat vasitəsinin qanunla müəyyən edilmiş hallarda dövlət texniki baxışdan keçməsini, rübdə bir dəfə texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılmasını, həmçinin reysqabağı yoxlanılmasını təmin etmək və istismar edərkən onu texniki cəhətdən saz vəziyyətdə saxlamaq;*
- *xidmət göstərdiyi ərazinin hüdudlarında küçələrin və əsas obyektlərin adlarını və onların yerləşdiyi yerləri, taksi minik avtomobilləri üçün nəzərdə tutulmuş dayanacaqların yerlərini, yol hərəkətinin təşkilini, tibbi yardım və polis bölmələrinin yerləşdiyi yerləri bilmək;*
- *avtonəqliyyat vasitəsinin salonunun və baqaj bölməsinin təmiz vəziyyətdə olmasına daim nəzarət etmək, iş vaxtı təmiz və səliqəli geyimdə olmaq, habelə sərnişinlərlə və nəzarət edən şəxslərlə ünsiyyətdə nəzakətli olmaq;*
- *xidmət etdiyi ərazi hüdudlarında sərnişini göstərilən ünvana çatdırmaq;*
- *daşımanın yerinə yetirilməsi üçün dayanacaqda sifarişi gözləyərkən "Taksi" tanınma nişanı fənərini yandırmaq və taksi minik avtomobilinin salonunda olmaq;*
- *dayanacaqda sərnişinlərin növbə ilə taksi minik avtomobilinə minməsini təmin etmək;*
- *yol hərəkəti qaydalarına riayət etməklə sifariş edilməmiş taksi minik avtomobilini gedişi həyata keçirmək istəyi olan və müvafiq işarə edən sərnişinin tələbi ilə dayandırmaq;*

- *sərnişinə xidmət göstərilməsini davam etdirməyə yol verməyən nasazlıq aşkar edildikdə, taksometrin göstəricilərinə görə sərnişinlə hesablaşmaq və gedişin davam etdirilməsində ona yardım etmək;*
- *sərnişindən təyinat məntəqəsini öyrəndikdən sonra, taksometri işə salmaq, "Taksi" tanınma nişanı fənərini söndürmək və hərəkətə başlamaq;*
- *yol hərəkəti qaydalarına riayət etməklə, sərnişinin göstərdiyi ünvana ən qısa yolla getmək;*
- *hərəkət marşrutunu yalnız sərnişinin razılığı və ya təşəbbüsü ilə dəyişmək;*
- *daşınma başa çatdıqda, taksometrin göstəricisinə uyğun olaraq sərnişinə gediş qiymətini elan etmək, onunla hesablaşmaq, sərnişinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada çek və ya ödəniş qəbzini vermək, baqajı vermək, avtomobildə sərnişinin əşyasının (əşyalarının) yaddan çıxıb qaldığı aşkar edildikdə isə onun (onların) sahibinə qaytarılması üçün zəruri tədbirlər görmək.*

**<u>Taksi xidməti göstərən sürücülərin hüquqları</u>**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 9-cü bölməsində taksi minik avtomobili sürücüsü üçün aşağıdakı hüquqlar müəyyənləşdirilb:

- *sərnişin tərəfindən ictimai qayda pozulduqda gedişi dayandırmaq, sərnişinlə hesablaşmaq, sərnişini düşürmək, yaxud polis bölməsinə aparmaq;*
- *gediş haqqını ödəməkdən boyun qaçıran sərnişinin şəxsiyyətini müəyyən etmək üçün daxili işlər orqanlarına müraciət etmək;*
- *daşınma ilə əlaqədar xidmətin göstərilməsi başlananadək sərnişinin gediş haqqını ödəmək imkanında şübhə olduqda, sərnişindən qabaqcadan gedişin və boşdayanmanın güman edilən dəyərindən artıq olmayan miqdarda ödəniş almaq;*
- *taksi minik avtomobilinin sifarişçisi razılaşdırılmış vaxtda xid-*

*mət göstərilməsi üçün nəzərdə tutulan yerə gəlmədikdə, sifarişi baş tutmamış hesab etmək;*

- *sərnişin çirkli paltarda və ya sərxoş vəziyyətdə olduqda, kobud surətdə ictimai qaydanı pozduqda, yaxud sürücüyə avtonəqliyyat vasitəsini idarə edərkən mane olduqda, gedişi dayandırmaq və həmin sərnişinin daşınmasından imtina etmək.*

**Taksi minik avtomobillərinin sürücülərinin etik davranışı ilə bağlı xüsusi hazırlığın təşkili**

Nəqliyyat Nazirlyinin 16 may 2016-cı il tarixli, 18 saylı Qərarı ilə taksi sürücüləri üçün etik davranış ilə xüsusi hazırlıq keçmələri üçün qaydaları ilə bağlı təsdiqlənib. Sənədə əsasən, hazırlıqlar proqram əsasında Rabitə və Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Tədris Kurs Kombinatında keçirilir. Kursların yüksək keyfiyyətini təmin etmək məqsədilə qruplar 20 nəfərdən çox və 10 nəfərdən az olmayan sayda formalaşdırılır və hazırlığın ümumi müddəti mühazirələr (31,5 saat), praktiki məşğələlər (8,5 saat) və yekun qiymətləndirmə (2 saat) ilə birlikdə 42 saat təşkil edir və bir sutka ərzində 6 saatdan artıq olmamaqla keçirilir.

Xüsusi hazırlıq zamanı taksi minik avtomobili sürücülərinə etik davranış qaydaları, o cümlədən sərnişinlərlə mədəni rəftar etmənin, ünsiyyətdə kobudluğun, taksi minik avtomobilində siqaret çəkilməsinin və qida qəbul edilməsinin yolverilməzliyin, eləcə də qonaqpərvər və nəzakətli olmağın, unudulmuş əşyalar barədə polis orqanlarının məlumatlandırılmasının zəruriliyi, habelə peşəkarlıq və məsuliyyət, sərnişinlərlə ünsiyyətin psixologiyası və münaqişəli vəziyyətlərin aradan qaldırılması yolları haqqında məlumatlar verilir.

Xüsusi hazırlıq zamanı taksi sürücülərinə inzibati ərazi vahidlərinin sərhədləri, dislokasiyası, tarixi mədəniyyət abidələrinin, sosial əhəmiyyətli obyektlərin, ali təhsil müəssisələrinin, ticarət obyektlərinin, xəstəxanaların yerləşdiyi ərazilər öyrədilir, avtomagistrallar, giriş-çıxış istiqamətləri, məsafələr, küçə və prospektlərin adları barədə ətraflı məlumatlar verilir.

Proqramın müvafiq mövzuları üzrə sualların 50 faiz və ondan çoxuna cavab verən sürücülər xüsusi hazırlığı müvəffəqiyyətlə bitirmiş

hesab edilirlər və onlara xüsusi hazırlığın keçməsini təsdiq edən sənəd və tədris olunan mövzuların daha yaxşı mənimsəmələri üçün əyani yaddaş materialları təqdim olunur.

Proqramın müvafiq mövzuları üzrə sualların 50 faiz və ondan çoxuna cavab verə bilməyən sürücülərin proqramın mövzuları üzrə bilikləri təkrarən qiymətləndirilir.

Sənədin tam mətni ilə bu linkdə tanış olmaq mümkündür: http://www.e-qanun.az/framework/32883

## Taksi xidməti göstərən sürücülər üçün qadağalar

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 9-cü bölməsində taksi minik avtomobili sürücüsü üçün aşağıdakı qadağalar müəyyənləşdirilb:

- *taksi dayanacağı üçün müəyyən edilməmiş yerlərdə sifariş gözləmək və hərəkətə təhlükə yaradan yerlərdə sərnişinlərə xidmət göstərmək;*
- *hərəkətə təhlükə yaradan texniki nasazlığı, o cümlədən nasaz və ya plombası pozulmuş taksometri, yaxud spidometri olan taksi minik avtomobili ilə sərnişin daşınmasını yerinə yetirmək;*
- *taksometr söndürülmüş halda olduqda, sərnişin daşınmasını yerinə yetirmək;*
- *taksi minik avtomobilinin texniki göstəricilərinə əsasən müəyyən edilmiş normadan artıq miqdarda sərnişin və baqaj (əl yükü) daşımaq;*
- *taksi minik avtomobilinə onu birinci kirayələmiş şəxsin razılığı olmadan digər sərnişinləri mindirmək;*
- *sərnişindən taksometrin göstəricisindən artıq miqdarda haqq ödəməyi tələb etmək;*
- *taksi minik avtomobilinin taksometrini və ya tanınma işıq fənərini hər hansı əşyalarla örtmək və ya çıxarmaq.*

**Taksi minik avtomobili sərnişininin vəzifələri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 saylı qərarı ilə təsdiqlənmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın 9-cü bölməsində taksi minik avtomobili sərnişini üçün aşağıdakı vəzifələr müəyyənləşdirilb:

- *gediş başa çatdıqda taksometrin göstəricisinə əsasən hesablanmış daşınma haqqını ödəmək;*
- *taksi minik avtomobili hərəkət etdikdə sürücünün diqqətini yayındırmamaq və ictimai qaydaya riayət etmək;*
- *gözləmə yeri və vaxtını sürücü ilə razılaşdırmaq;*
- *təyin edilmiş vaxtı ötürməklə sifarişi təxirə saldıqda, müəyyən etdiyi yerə gəlmiş taksi minik avtomobilinin taksometrində göstərilmiş məbləği ödəmək.*

Taksi minik avtomobili sərnişininin hüquqları aşağıdakılardır:

- *müəyyən edilmiş xidmət ərazisi hüdudlarında təyinat məntəqəsinə gediş üçün taksi minik avtomobilini kirayələmək;*
- *gəlmə yerini və vaxtını göstərməklə taksi minik avtomobilini sifariş etmək (o cümlədən, telefon vasitəsilə);*
- *taksi minik avtmobilinin texniki göstəricilərinə əsasən müəyyən edilmiş normadan artıq olmayan miqdarda əlavə haqq ödəmədən baqaj və əl yükü daşımaq;*
- *taksi minik avtomobili sürücüsünün xahişi ilə qabaqcadan gedişin və gözləmə zamanı dayanmanın güman edilən dəyərindən artıq olmayan miqdarda haqq ödəmək;*
- *taksi minik avtomobilinin salonunda avtomobilin qapısından içəri sərbəst daxil edilə bilən salonun üzlüyünü və avadanlığını korlamayan və çirkləndirməyən, habelə avtomobilin təhlükəsiz idarə edilməsində sürücüyə maneçilik törətməyən müxtəlif*

*əşyaları daşımaq;*

- *daşıyıcının əmlakının korlanmasına görə məsuliyyəti öz üzərinə götürməklə, ağızlığı taxılmış və qısa xalta qayışı olan itləri, habelə xüsusi sukeçirməyən altlığı olan səbətlərdə, zənbillərdə, çantalarda pişikləri, digər xırda heyvanları və dibi bağlı qəfəslərdə quşları daşımaq;*
- *taksi minik avtmobilinin sürücüsündən təyinat məntəqəsinə icazə verilmiş ən qısa marşrutla hərəkət etməyi tələb etmək;*
- *taksi minik avtomobilində gediş üçün sifarişin rəsmiləşdirilməsi zamanı göstərilən xidmətlərin təxmini dəyəri və şərtləri barədə məlumat almaq;*
- *sifarişləri qəbul edən məntəqəyə xəbər verməklə, taksi minik avtomobilinin müəyyən edilmiş vaxtda gəlməsinə ən azı 30 dəqiqə qalmış daşınma üçün edilmiş sifarişi ləğv etmək;*
- *kirayə və ya gediş haqqının ödənilməsi barədə çek və ya ödəniş qəbzi tələb etmək.*
- *Taksi minik avtomobilindən növbədənkənar istifadə etmək hüququ hamilə qadınlara, məktəbəqədər yaşlı uşaqlarla olan sərnişinlərə və aşkar şəkildə əlillik əlamətləri olan şəxslərə verilir.*



# Taksi xidməti göstərmək üçün dövlət standartları

Taksi xidmətlərinin göstərilməsi ilə bağlı qüvvədə olan standartlar – "AZS 425-2015 "Sərnişin stansiya qurğuları və avtomobilləri" dövlət standartı Azərbaycan Respublikası Standartlaşdirma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 27 oktyabr 2015-ci il tarixli 150111500009 saylı Kollegiya qərarı ilə təsdiqlənib.

Bu standart sərnişin stansiyası qurğuları, avtobus dayanacaq məntəqələri, taksi minik avtomobillərin dayanacaqları ilə yanaşı bilavasitə taksi minik avtomobillərinə də şamil edilir, onların fərqləndirici nişanlarının, lövhələrinin və digər informasiya tərtibatlarının, məlumatlarının qeydə alınması üçün əsas tələbləri müəyyənləşdirir.

Təsdiqlənmiş dövlət standartı taksi kimi istifadə edilən avtomaşınlar xüsusi həm daxili, həm də xarici tərtibatı üzə texniki göstəricləri müəyyənləşdirib.

## Taksi maşınlarının xarici tərtibatı

Qüvvədə olan dövlət standartına əsasən, taksi maşınlarının xarici tərtibatı ilə bağlı tələblər aşağıdakılardır:



- Taksi minik avtomobilinin damında “Taksi” tanınma nişanı olan müvafiq fənər, hər iki tərəfdən qabaq və arxa qapıların üzərində şahmat qaydasında düzülmüş, dördbucaqlardan ibarət kompozisiyalı fərqləndirici nişan olmalıdır.
- Hüquqi şəxslərin, habelə iki və daha artıq minik avtomobili ilə sərnişin daşımalarını həyata keçirən fiziki şəxslərin daşımalarda istifadə etdiyi taksi minik avtomobilləri sarı, ağ və ya bənövşəyi rəngdə olmalıdır.
- İki qapılı, fərdi konstruksiya əsasında hazırlanan, habelə əllə idarə olunan əlil avtonəqliyyat vasitələrinin taksi minik avtomobilləri kimi istismarına yol verilmir.
- Taksi minik avtomobillərinin fərqləndirici nişanı qara-sarı və ya qara-ağ rəngdə olmalıdır.
- Fərqləndirici nişanlar trafaret üzrə və ya dekalkomaniya üsulu ilə (boya ilə) çəkilməlidir
- Fərqləndirici nişanın forma və ölçüləri **Əlavə E-də** verilmişdir.

Ölkədə istismar edilən taksi minik avtomobilləri nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış ili 15 ildən artıq olmayan avtomobillər olmalıdır.




Əlavə 6
ƏLAVƏ E
2.4 sm
2.4 sm
2.4 sm
2.4 sm
6.4 sm
6.4 sm
6.4 sm
6.4 sm
3 sm
3 sm
3 sm
3 sm
33 sm
Taksi minik avtomobilinin kapotu
33 sm
Taksi minik avtomobilinin damı
2.4 sm
2.4 sm
33 sm
Taksi minik avtomobilinin yük yeri
80 sm
Taksi minik avtomobilinin fənəri
13.5 sm
13.5 sm
18.5 sm


VACANT
TAXI


TAXI


LADA Largus

## Taksi maşınlarının daxili tərtibatı

Qüvvədə olan dövlət standartına əsasən, taksi maşınlarının daxili tərtibatı ilə bağlı tələblər aşağıdakılardır:

- Taksi-minik avtomobillərində sərnişin üçün ön oturacağın cihaz panelində yaxşı oxuna biləcək şəkildə sürücünün soyadı, adı, fotoşəkli və daşıyıcının (fiziki və ya hüquqi şəxsin) adı, ünvanı, telefon nömrəsi göstərilən məlumat lövhəsi olmalıdır. Lövhə 110x60 mm ölçüdə olmalıdır.
- Taksi-minik avtomobilinin sürücü ilə bağlı informasiya lövhəsinin nümunəsi Əlavə G-da verilmişdir.
- Taksi-minik avtomobilləri taksometr aparatı ilə təchiz olunmalıdır.
- Taksometr taksi-minik avtomobilinin salonunda sərnişinlərin rahat məlumat almaları üçün uyğun yerdə quraşdırılmalıdır.
- Taksi-minik avtomobilinin salonu minimal havalandırma, isitmə, habelə salonun normal işıqlandırma sistemləri ilə təchiz olunmalıdır.

**Əlavə G**










TAXI FARE
$ 2.50 INITIAL CHARGE
40¢ Per 1/5 Mile
40¢ Per 2 Minutes Stopped/Slow traffic
$ 1.00 Weekday Surcharge 4 pm - 8 pm
50¢ Night Surcharge 8 pm - 6 am
DAVID KLAHR
1234567
Credit Card Tap Here
People
LATEST NEWS
MOST POPULAR STORIES
Celebrities
ZAGAT


7F20 CONTACT TLC DIAL 3-1-1
NISSAN


TAXI

## Taksilərin reysqabağı yoxlanılması

***Texniki vəziyyətinin reysqabağı yoxlanılması***

Taksi xidməti həyata keçirən avtomobil nəqliyyatı vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi tələb olunur. Bununla bağlı Nazirlər Kabinetinin 2009-cu il 24 aprel tarixli, 71 saylı qərarı ilə təsdiq edilmiş **"Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən sərəncamında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi" Qaydası** mövcuddur.

Bu Qayda avtomobil nəqliyyatı ilə beynəlxalq şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və taksi minik avtomobilləri ilə sərnişin daşımalarına, habelə beynəlxalq və ölkədaxili yük daşımalarına xüsusi razılıq (lisenziya) almış hüquqi şəxslərə və fərdi sahibkarlara şamil edilir.

Taksilərin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının əsas məqsədi onların reysqabağı texniki vəziyyətinin qüvvədə olan təhlükəsizlik və istismar qaydalarının, normativlərinin, standartlarının tələblərinə uyğun olmasını, insanların həyat və sağlamlığının qorunmasını təmin etməkdir. Buna görə də taksi xidmətli göstərənlər avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasını təmin etməlidirlər.

Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması Nəqliyyat Nazirliyinin təyin etdiyi hüquqi və ya fiziki şəxslər tərəfindən təşkil edilmiş məntəqələrdə qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Texniki vəziyyətin reysqabağı yoxlanılması hüquqi və fiziki şəxslər tərəfindən əmək və ya mülki hüquq müqavilələri əsasında həyata keçirilir.

Taksilərin texniki vəziyyətinin reysqabağı yoxlanılması zamanı onların tormoz sistemi, sükan idarə mexanizmi, xarici işıq cihazları,

qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları, təkərlər və şinlər, mühərrik və konstruksiyanın digər ünsürləri yoxlanılır.

Texniki vəziyyətin reysqabağı yoxlanılması zamanı aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- *yoxlamanın avtonəqliyyat vasitəsinin hər hansı bir hissəsini sökmədən və ya çıxarmadan, texniki ölçmə vasitələrindən istifadə etməklə, əsasən vizual şəkildə ixtisaslı mütəxəssis tərəfindən aparılmasına;*
- *istifadə olunan texniki ölçmə vasitələrinin istifadəyə yararlı və müəyyən edilmiş standartlara uyğun olmasına.*

Texniki vəziyyətin reysqabağı yoxlanılmasının nəticələrinin qeydiyyatı müvafiq qaydada xüsusi jurnalda aparılır və taksi sürücülərinə müayinə məntəqəsinin möhürü ilə təsdiq edilmiş arayış verilir.

Arayış yalnız texniki cəhətdən qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən avtonəqliyyat vasitələri üçün verilir. Texniki vəziyyətinin reysqabağı yoxlanılması barədə arayış olmadan avtonəqliyyat vasitələri daşımalara buraxılmır.

## Reysqabağı tibbi müayinə

"Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən sərəncamında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi" Qaydasına əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar onların sərəncamında olan avtonəqliyyat vasitələrinin sürücülərinin reysqabağı tibbi müayinədən keçmələrini təmin etməlidirlər.

Reysqabağı tibbi müayinənin əsas məqsədi reysə çıxmazdan əvvəl sürücülərin sağlamlıq vəziyyətinin tibbi norma və tələblərə müvafiq olmasını, insanların həyat və sağlamlığının qorunmasını təmin etməkdir.

Sürücülərin reysqabağı tibbi müayinəsi müvafiq tibb müəssisələri tərəfindən qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Müvafiq tibb müəssisələri tərəfindən sürücülərin reysqabağı tibbi müayinəsi Nəqliyyat Nazirliyinin təyin etdiyi hüquqi və ya fiziki şəxslər tərəfindən təşkil edilmiş məntəqələrdə aparılır.

Reysqabağı tibbi müayinə hüquqi və fiziki şəxslər tərəfindən əmək və və ya mülki hüquq müqavilələri əsasında həyata keçirilir. Tibbi müayinə zamanı sürücülərin anamnezi toplanmalı, bədən temperaturu ölçülməli, nəbzi sayılmalı və nəfəsvermə havasında alkoqolun olmaması təyin edilməlidir.

Sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi zamanı aşağıdakı prinsiplərə riayət olunmalıdır:

- *müayinənin ixtisaslı tibb işçiləri tərəfindən müvafiq tibbi avadanlıqlardan istifadə edilməklə aparılmasına;*
- *istifadə olunan tibbi avadanlıqların istifadəyə yararlı və müəyyən olunmuş standartlara uyğun olmasına.*

Sürücülərin reysqabağı tibbi müayinəsinin nəticələrinin qeydiyyatı müvafiq qaydada xüsusi jurnalda aparılır. Tibbi müayinənin nəticələrinə görə forması Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilən sürücünün reysqabağı tibbi müayinə kitabçasında müayinə məntəqəsinin möhürü ilə təsdiq edilmiş qeydlər aparılır.

Sağlamlıq vəziyyəti tibbi tələblərə uyğun olmayan sürücülər nəqliyyat vasitəsinin idarə edilməsinə buraxılmırlar.

## Taksi xidməti sahəsində dövlət tənzilənməsi

Ölkə prezidentinin "Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli, 709 saylı Fərmanı ilə Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi yaradılıb. Agentlik Bakı şəhərində avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləməni və dövlət nəzarətini həyata keçirir.

Agentlik taksi xidməti göstərən fiziki və hüquqi şəxslərin fəaliyyətinə birbaşa və dolayı təsir edəcək aşağıdakı vəzifələrə malikdir:

– avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, yerüstü və yeraltı keçidlərin, metro çıxışlarının, velosiped və xüsusi operativ nəqliyyat vasitələri üçün əlavə yolların inşasına, cari və əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə razılıq vermək;
– sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin və avtomobil duracaqlarının, habelə nəqliyyat qovşaqlarının yerlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ilə razılaşdırmaqla müəyyən etmək, habelə dayanacaq məntəqələrinin və avtomobil duracaqlarının yerləşdirilməsini, həmçinin nəqliyyat qovşaqlarının yaradılmasını təmin etmək;
– sərnişindaşınmaya aid normativ hüquqi aktların müddəalarına riayət edilməsinə nəzarət etmək, həmin müddəaları və sərnişin və baqaj daşınması qaydalarını pozmuş şəxslər barəsində tədbir görmək və ya müvafiq tədbir görülməsi üçün aidiyyəti dövlət orqanlarına təqdimat vermək;
– sərnişindaşıma xidmətləri yerinə yetirilərkən ətraf mühitin

mühafizəsinin təmin edilməsinə dair tələblərə riayət olunmasına nəzarət etmək;

- marşrut istiqamətləri üzrə avtobusların və taksi minik avtomobillərinin kvotasını (yuxarı həddini) müəyyən etmək;
- Sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı vasitələri üçün "Fərqlənmə nişanı" vermək;
- Sərnişindaşıma xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün tədbirlər görmək;
- yollarda tıxac yaranması səbəblərini araşdırmaq, təhlillər aparmaq və müvafiq təkliflər vermək;
- yollarda tıxac yaranmaması və nəqliyyat axınının tənzimlənməsi üçün ticarət, iaşə, sənaye və tikinti obyektlərinə və həmin obyektlərdən yükdaşımaların iş vaxtı rejiminə dair təkliflər hazırlamaq və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;
- sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı sürücülərinin peşə fəaliyyətinə və davranışına dair xüsusi proqram üzrə hazırlıq keçməsini təşkil etmək və həyata keçirmək;
- sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı bazasının möhkəmləndirilməsi məqsədi ilə investorların cəlb olunmasını təşviq etmək;
- inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkar şəxslərə müəyyən edilmiş qaydada inzibati tənbeh tədbirləri tətbiq etmək;

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə Sumqayıt və Gəncə şəhərlərində də analoji qurum yaradılıb. Prezidentin müvafiq fərmanları ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında **Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi** və Gəncə Şəhər İcra Hakimiyyəti yanında **Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi** yaradılıb.

## Əsas hüquqi aktlar

- İnzibati Xətalar Məcəlləsi
- Vegrilər Məcəlləsi
- “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanunu;
- “Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında” 31 avqust 2015-ci il tarixli prezident Fərmanı
- Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2015-ci il tarixli 713 saylı Fərmanı
- Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən sərəncamında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, sürücülərin reysqabağı tibbi müayinəsinin keçirilməsi” Qaydası
- Bakı şəhərində nəqliyyat sahəsində islahatların keçirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin Bakı şəhəri, 21 dekabr 2015-ci il tarixli, 709 saylı Fərmanı
- Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli, 704 saylı Fərmanı
- Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2016-cı il tarixli, 750 saylı Fərmanı

- «Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı»nın tətbiq edilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin *9 fevral 2006-cı il tarixli* 40 saylı qərarı
- "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli qərarı;
- "Avtovağzal və avtostansiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli qərarı.
- "AZS 425-2015 "Sərnişin stansiya qurğuları və avtomobilləri" dövlət standartının təsdiqi haqda Standartlaşdirma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 27 oktyabr 2015-ci il tarixli 150111500009 saylı Kollegiya qərarı
- "İcbari tibbi müayinələrin təkmilləşdirilməsi barədə" Səhiyyə Nazirliyi Kollegiyasının 13 dekabr 2012-ci il tarixli 46 saylı Qərarı

## TERMİNLƏRİN İZAHI

**Taksi minik avtomobili -** xüsusi tanınma nişanları və taksometrlə təchiz olunmuş, sürücünün oturacaq yeri daxil olmaqla, oturacaq yerlərinin sayı doqquzdan çox olmayan avtonəqliyyat vasitəsi;

**Taksi dayanacağı** – taksi minik avtomobillərinin sərnişin gözləməsi, sərnişin mindirib – düşürməsi üçün yol çiyni içərisində qalan, yaxud yol kənarının genişləndirilmiş hissələrində və ya xüsusi ərazilərdə taksi minik avtomobilinin dayanması üçün müvafiq qaydada işarələnmiş yer ;

**Marşrut** - müəyyən edilmiş dayanacaqlar və məntəqələr arasında sərnişin avtonəqliyyat vasitəsinin hərəkət etdiyi yol;

**Marşrutun sxemi** – müəyyən edilmiş marşrutun şərti işarələrlə qrafik təsviri.

**Avtovağzal -** yaşayış məntəqələrində sərnişinlərə xidmət göstərilməsi üçün nəzərdə tutulmuş və 75-dən artıq sərnişin tutan gözləmə zalı, bilet kassaları, ana və uşaq otağı, baqajların saxlama kameraları, iaşə, mədəni-məişət və sanitariya-gigiyena təyinatlı sahələri, tibbi yardım və polis məntəqələri, inzibati binası və ya xidməti otaqları, sürücülərin istirahət otağı, sərnişinlərin minib-düşməsi üçün perronu, avtobusların reyslərarası dayanması üçün meydançası və təmizləmə postları, habelə şəhər nəqliyyatının və taksi minik avtomobillərinin dayanması üçün vağzalyanı sahəsi olan bina və qurğular kompleksi;

**Avtostansiya** - yaşayış məntəqələrində sərnişinlərə xidmət göstərilməsi üçün nəzərdə tutulmuş, 75-dək sərnişin tutan gözləmə zalı, ən azı bir xidməti otağı, bilet kassası, sanitariya-gigiyena təyinatlı sahəsi, sərnişinlərin minib-düşməsi üçün perronu olan qurğu;

**Sərnişin stansiya qurğuları** – sərnişinlərə xidmət göstərmək üçün nəzərdə tutulmuş avtovağzal, avtostansiya, avtobus dayanacağı, taksi dayanacağı;

**Baqaj** - daşınmaq üçün qablaşdırılmış, sərnişin tərəfindən avtonəqliyyat vasitəsilə göndərilən və ya səfər boyu müşayiət edilən,

qabariti, çəkisi və xüsusiyyətindən asılı olaraq daşınmasına icazə verilən yük;

**Daşıyıcı** - daşınma müqaviləsi və ya digər qanuni əsaslarla sərnişin və yük daşımalarını yerinə yetirən hüquqi şəxs və ya fərdi sahibkar;

**Əl yükü** - sərnişinə məxsus və öz xüsusiyyətlərinə, ölçülərinə, çəkisinə görə sərnişin avtonəqliyyat vasitəsinin salonunda daşınmasına icazə verilən əşyalar;

**Sərnişin avtonəqliyyat vasitəsi** - konstruksiyasına və təchiz edilmiş avadanlığına görə insanların və baqajın daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsi;

**Sərnişin** – avtonəqliyyat vasitəsində gediş hüququ verən sənəd (bilet) və ya digər qanuni əsaslarla daşınan fiziki şəxs;

**Sərnişin daşınması** – sərnişinlərin avtonəqliyyat vasitəsilə yoladüşmə məntəqəsindən təyinat məntəqəsinə çatdırılması;

**Sifariş** - avtomobil nəqliyyatı ilə sərnişin və ya yük daşımalarının sifarişçisi ilə daşıyıcı arasında münasibətləri tənzimləyən müqavilə;

**Sürücü** - avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan, daşımalar prosesində birbaşa iştirak edən, habelə müvafiq hallarda daşıyıcını təmsil edən şəxs;

**Yük** - avtomobil daşıyıcısı tərəfindən təyinat məntəqəsinə çatdırılmaq üçün qəbul edilmiş əmtəə və ya qeyri-əmtəə təyinatlı mal;

**Yük avtonəqliyyat vasitəsi** - konstruksiyasına və təchiz edilmiş avadanlığına görə yük daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsi;

**Yükgöndərən** - adından yük göndərilməsi rəsmiləşdirilən hüquqi və ya fiziki şəxs;

**Yükalan** - avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinə və ya digər müvafiq sənədlərə əsasən yükü almaq səlahiyyəti olan hüquqi və ya fiziki şəxs.

## Sahibkarlar üçün faydalı linklər

### Bilavasitə sahibkarlıq fəaliyyətilə bağlı dövlət orqanları

**http://www.taxes.gov.az/ - Vergilər Nazirliyi**
**http://www.economy.gov.az – İqtisadiyyat və Sənaye Nazirliyi**
**http://www.sspf.gov.az/ - Dövlət Sosial Müdafiə Fondu**
**http://anfes.gov.az/az/ - Sahibkarlığa Kömək Milli Fondu**
**http://icazeler.gov.az/ - Rəsmi qurumlardan alınmalı olan icazələrin rəsmi informasiya portalı**
**www.e-qanun.az**
**http://consumer.gov.az/**

### Kommunal xidmət müəssisələri

**http://www.bes.az/index.php?lang=az&menu=main / - "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti**
**http://azersu.az/ - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti**

### Sahibkarlığın inkişafı ilə əlaqəli ictimai qurumlar

**http://sme-ltd.info/ - Sahibkarın Məsləhət Evi**
**http://ehr-az.org/ - İnsan Hüquqları Üzrə Maarifləndirmə İctimai Birliyi**
**http://labourrights-az.org/ - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**
**http://www.edf.az/ts_general/azl/index.php - Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu**
**http://ask.org.az/?lang=az - Azərbaycan Respublikası Sahibkarlar Konfederasiyası**

**Taksi xidməti:**
**kiçik sahibkarlar üçün bələdçi**

Kompüter dizaynı: Ariz Allahverdiyev

Format 84x102, 1/32, 1,5 ç.v. Tiraj 300 ədəd.
Kitab “AZSEA” MMC -də çap edilib.
Kitab pulsuz paylanır.